**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SƏADƏT MƏMMƏD qızı BAYRAMOVA**

# XX ƏSR AZƏRBAYCAN YAZILI ƏDƏBİYYATINDA NAĞIL MÖVZUSUNUN BƏDİİ İNİKASI

**5716. 01 – Azərbaycan ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan şifahi xalq ədəbiyyatı və ədəbi abidələr şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Məhərrəm Paşa oğlu Qasımlı**
Əməkdar elm xadimi,
filologiya üzrə elmlər doktoru,
professor

**Rəsmi opponentlər:** **Mustafayev Tehran Əlişan oğlu**
AMEA-nın müxbir üzvü, filologiya
üzrə elmlər doktoru

**Maarifə Hüseyn qızı Hacıyeva**
filologiya üzrə elmlər doktoru,
professor

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Azərbaycan və dünya ədəbiyyatı kafedrası

**Müdafiə** "____" ________ 2017 –cı il saat "____"-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

**Avtoreferat** "_____" ________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi, filologiya**
**üzrə fəlsəfə doktoru:** **İsmixan Məhəmməd oğlu Osmanlı**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsr Azərbaycan ədəbiyyatında nağıl mövzusunun fəallığı cəmiyyətin sosial-mənəvi həyatındakı tarixi proseslərlə sıx bağlıdır. Milli varlığın əsas mövcudluq qaynaqlarından olan xalq yaradıcılığı təkanverici mənəvi sistem kimi daim yazılı düşüncəni qidalandırmış, ənənə ilə əlaqənin təminatçısına çevrilmişdir. Cəmiyyətin ictimai, siyasi, mədəni həyatında baş verənlər, yüzilliyin özünün doğurduğu problemlər bütünlükdə milli ictimai-bədii təfəkkürü məşğul edən əsas məsələlərdən idi. Azərbaycan ədəbiyyatı həmişə ideya-estetik düşüncənin tərkib hissəsi kimi mövcud mənzərəni müxtəlif səpkili bədii axtarışlarda, çeşidli forma və üsullarda inikas etmək məharəti ilə seçilmişdir. Çarizmin müstəmləkəçilik siyasəti, sovet rejimi, onun formalaşdırdığı və formalaşdırmaq istədiyi "sovet insanı", "sovet cəmiyyəti" təsəvvürləri və s. əslində milli-mənəvi sistemi zədələməyə və tədricən aşındırıb dağıtmağa yönəlmişdi. Milli varlığın qoruyucusu olan bədii ədəbiyyat bütün zamanlarda olduğu kimi, sözügedən tarixi mərhələdə də ağırlığı öz üzərinə götürərək nağıl, rəvayət, əfsanə, epos ənənəsinə müraciəti aktuallaşdırmaqla tarixi yaddaşın bərpasına, etnosun mifdən, genetik düşüncədən gələn təsəvvürlərinin möhkəmləndirilməsinə üstünlük verdi.

XX əsr Azərbaycan bədii düşüncəsi üçün xarakterik xüsusiyyətlərdən biri nağıl mövzusundan bəhrələnməklə mühiti inkişaf etdirmək, bu janrın imkanlarından istifadə yolu ilə sətiraltı şəkildə ictimai-mədəni mühitə müəyyən işarələr verməkdir. Milli-mənəvi yaddaşın qorunması, möhkəmləndirilməsi və müxtəlif formalarda gələcəyə daşınması bədii-estetik düşüncəni bütün əsr boyu məşğul edən əsas məsələlərdən olmuşdur. Ona görə də əsrin əvvəllərindən, daha doğrusu, XIX yüzilliyin sonlarından başlayaraq nağıl mövzularında yazılmış bədii əsərlərlə cəmiyyəti ifadə etmək bir istiqamət olaraq bütünlükdə ədəbiyyatın diqqət mərkəzində idi. Nağıllardakı poetik sistem, mətnin daxili aləmi, kanonik quruluş, üslubi formullar yazıçı məqsəd-məramının ifadəsi üçün vasitə və manera funksiyası rolunu oynayır. Burada maarifləndirmə, uşaq ədəbiyyatının prinsip və texnalogiyalarından istifadə ilə uşaqlar üçün nümunələr yaratmaq, siyasi mühitin ifadəsi və s. məsələlər çoxşaxəli şəkildə özünə yer alır. Nağıl-poema, nağıl-hekayə, nağıl-povest, nağıl-roman, nağıl-dram, nağıl-oçerk və s. formalar sənətkar axtarışlarında yeni tipologiyanı və yeni janr texnalogiyalarını müəyyənləşdirir. Əsrin bədii zənginliyində milli düşüncənin ifadə və yaşam hadisəsi kimi bunların mahiyyətinin müəyyənləşməsi aktual məsələlərdən biri kimi filoloji fikrin diqqət mərkəzində dayanır.

**Mövzunun işlənmə dərəcəsi.** XX əsr Azərbaycan bədii düşüncəsinin şifahi ədəbiyyatla əlaqələri problem kimi müxtəlif səviyyələrdə tədqiqatların mövzusuna çevrilmişdir. M.Hüseyn , M.Cəlal, M.Cəfər, C.Xəndan, F.Qasımzadə, Y.Qarayev, İ.Bəktaşi, M.Məmmədov, X.Məmmədov, P.Əfəndiyev, İ.Həbibbəyli, K.Abdulla, M.İmanov, N.Cəfərov, A.Hacıyev, V.Osmanlı, Anar, Elçin, A.Hüseynov, T.Hüseynoğlu, Ə.Məmmədov , Q.Namazov, H.Ənvəroğlu, R.Yusifoğlu, V.Yusifli, B.Əhmədov, V.Sultanlı, T.Salamoğlu, və s. tədqiqatçılar bədii sferadakı şifahi və yazılı ədəbiyyat münasibətlərinin ümumi səciyyəsindən, janr tipologiyasından qəhrəman probleminə, mövzu rəngarəngliyinə qədər çeşidli təhlillər aparmış və geniş anlamda mahiyyətini ortaya qoymağa çalışmışlar. Şifahi ədəbiyyat və yazıçı münasibətlərini araşdıran M.H.Təhmasib, V.Vəliyev, P.Əfəndiyev, Ə.Cəfərzadə, B.Abdulla, M.Hacıyeva, M.Cəfərli, N.Xəlilov, X.Bəşirova, N.İsayeva və başqa tədqiqatçılar da bir çox maraqlı elmi əsərlər qələmə almışlar. Problemin birbaşa nağıl müstəvisində sistemli olaraq işlənməsi təqdim olunan dissertasiya işi ilə bağlıdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini iyirminci yüzillik Azərbaycan ədəbiyyatı təşkil edir. Olduqca böyük mündəricəyə, zəngin fakturaya malik olan sözügedən ədəbi-tarixi mərhələ janr tipologiyası, struktur komponentləri, etnosun tarixi və mifoloji yaddaşının ifadəsi və müəyyənliyi baxımından da fakt bolluğu baxımından diqqətçəkicidir.

Tədqiqatın predmetini bu zənginliyin mühüm bir istiqaməti, nağıl mövzusundan bəhrələnmə problemi təşkil edir. Məlum olduğu kimi, nağıl xalqın milli varlığının ilkin mənəvi enerji qaynaqlarındandır. XX əsrin müxtəlif onilliklərində yazılı ədəbiyyatın nümayəndələri nağıl formullarından bəhrələnməklə mühiti, onun sosial-siyasi problemlərini dolayı yolla, üstüörtülü şəkildə ifadə etməyə çalışmışlar.

**Tədqiqatın məqsəd və vəzifələri.** Araşdırmanın əsas məqsədi XX əsr yazılı ədəbiyyatında özünü geniş şəkildə göstərən nağıl mövzusuna müraciətin səbəblərini, forma və üsullarını, mahiyyətini, keyfiyyət yeniləşmələrini bir sistemin vahidi kimi tipoloji müstəvidə müəyyənləşdirməkdir. Bunların aydınlığı üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıda durur:

– XX əsr Azərbaycan ədəbiyyatında nağıl mövzusuna müraciətin məqsəd və məramını, ədəbi-tarixi dəyərini müəyyənləşdirmək;

– etnosun mifoloji, tarixi yaddaşını, təsəvvür və inanclarını ifadə edən nağıl mətnlərinin bədii düşüncəyə gətirdiyi ideya və mövzu imkanlarını aydınlaşdırmaq;

– bir əsrin bədii nümunələri timsalında nağıl simvolikasının mətnaltı məna çalarlarını müəyyənləşdirmək;

– XX əsr ədəbiyyatında özünü göstərən nağıl formullarından bəhrələnmənin mahiyyət və səbəblərini aşkarlamaq;

– nağıl mövzusuna müraciətin yazıçı fakturasında çeşidli yönlərdən manera səciyyəsini dəqiqləşdirmək;

– nağıl formullarının üslubi səciyyəsini, məna yaratmada funksional xarakterini açmaq;

– bu məqsədlə yazıya alınmış bədii əsərlərdə etnosun yaddaşının, milli-tarixi mənsubluğunun ifadə, yaşam və özünəqayıdış hadisəsi kimi dəyərini aydınlaşdırmaq;

– nağıl təhkiyəsinə məxsus dil, üslub xüsusiyyətlərinin, mətnaltı manera imkanlarının XX əsr Azərbaycan ədəbiyyatındakı ədəbi-estetik xarakterini üzə çıxarmaq və s.

**Tədqiqatın metodologiyası.** Dissertasiya işi tarixi-müqayisəli və nəzəri-tipoloji metodlar müstəvisində işlənmişdir. Müasir filologiyanın elmi-nəzəri prinsipləri, ədəbi-estetik dəyərləndirmələri, mövzu ilə bağlı qənaətləri, folklor və yazıçı kontekstində aparılan təhlillər elmi-nəzəri qaynaq kimi istinad mənbəyi olmuşdur.

**İşin elmi yeniliyi.** Dissertasiya XX əsr Azərbaycan ədəbiyyatında nağıl mövzusuna müraciətin məqsəd və prinsiplərinin müəyyənləşməsi müstəvisində yazılmışdır. Bu araşdırma həmin əsrdəki sənətkarların nağıl mövzu və süjetlərinə, təhkiyəsinə, formullarına fəal müraciətinin səbəbləri, ayrı-ayrı tarixi mərhələlərdə bu mövzunun imkanlarından istifadə müxtəlifliyi, qələmə alınmış əsərlərin ideya-estetik səciyyəsi, janr sintezi problemi, yazıçı və folklor münasibətlərinin müxtəlif tarixi mərhələlərdəki çeşidli təzahür formaları kimi elmi məsələlərin öyrənilməsinə həsr olunmuş ilk monoqrafik tədqiqatdır. Ona görə də bir sıra elmi yeniliklərlə səciyyələnir:

– XX əsr Azərbaycan ədəbiyyatının nağıl obraz, mövzu və süjetlər ilə münasibətləri araşdırılaraq onların ədəbi-estetik mahiyyəti, bədii-üslubi səciyyəsi müəyyənləşdirilmişdir;

– tarixi-genetik yaddaşın, mental inanc və təsəvvürlərin, milli-mənəvi düşüncənin real siyasi-sosioloji aşınmalar mühitində qorunması yolundakı ədəbi mücadilə aydınlaşdırılmışdır;

– nağıl mətnlərində özünü göstərən poetik sistemin, üslubi formulların xüsusi məna kəsb etməsi, o cümlədən də sətraltı məna yaratmada iştirakı ayrı-ayrı tarixi dönəmlərin ədəbi axtarışlarında üzə çıxarılmışdır;

– nağıl mövzusuna müraciətin səbəbləri, mahiyyəti, forma, üsul və prinsipləri aydınlaşdırılmışdır;

– nağıl mövzusuna müraciətin spesifikası, özünəməxsusluqları və burada müşahidə olunan təhkiyə üsulları, yaradıcılıq maneraları aşkarlanmışdır;

– nağıl mövzusundan gələn motiv, obraz və süjetlərin XX əsr bədii düşüncəsinə gətirilməsinin milli kimliyin qorunması və oyanışı üçün əhəmiyyətli vasitə olması açıqlanmışdır;

– XX əsr ədəbiyyatında nağıl simvolikasının çeşid zənginliyi və ədəbi-estetik düşüncəyə gətirdiyi yeniliklər elmi-nəzəri təhlil süzgəcindən keçirilərək ümumiləşdirilmişlir.

**İşin nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işi XX əsr Azərbaycan ədəbiyyatının xalq təfəkküründən qaynaqlanma imkanlarını, nağıl motivlərinin mühiti, etnosun milli mənlik yaddaşını ifadə səciyyəsini, nağıl formullarının yazılı bədii düşüncədə məna yaratma funksiyasını və s. müəyyənləşdirmək üçün mühüm nəzəri əhəmiyyət kəsb edir.

Dissertasiya XX əsr Azərbaycan ədəbiyyatının araşdırıcıları, ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün mühüm praktik əhəmiyyət daşıyır. Ali məktəblərdə tədqiqat işindən dərs vəsaiti, seçmə fənn materialı kimi də istifadə etmək olar.

**İşin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Şifahi xalq ədəbiyyatı və ədəbi abidələr şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları müxtəlif məqalələr və tezislər şəklində xarici ölkələrdə nəşr olunan elmi jurnallarda, beynəlxalq konfranslarda məruzələrdə və respublikamızda Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu elmi jurnal və məcmuələrdə öz əksini tapmışdır.

**İşin quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **“XX əsrin müxtəlif mərhələlərində nağıl mövzusuna müraciətin ədəbi-tarixi zərurəti”** adlanan I fəsli iki yarımfəsildə öyrənilir. Birinci yarımfəsildə **“Ədəbi-tarixi təcrübədə və XX əsrin birinci yarısında nağıl mövzusunun bədii ədəbiyyatda yeri”** araşdırılır.

Məlum olduğu kimi, nağıl Azərbaycan şifahi və yazılı ədəbiyyatında mühüm yer tutan və müxtəlif tədqiqatların problemi olan janrdır. Hələ bundan çox-çox əvvəl klassiklərimiz nağılların süjet, motiv, obraz və ideyalarından lazımi qədər ustalıqla bəhrələnmişlər. Nizami Gəncəvinin, Qul Əlinin, Əssar Təbrizinin, Mustafa Zəririn, Yusif Məddahın, Fədainin və başqalarının yaradıcılığı buna nümunədir. Onlar nağıl motivlərindən, xalq yaradıcılığının müxtəlif üslub və forma çalarlarından istifadə etməklə əsərlərinə dərin məzmunlu xəlqi keyfiyyət və yüksək səviyyəli obrazlılıq qazandırmışlar. Dahi mütəfəkkir N.Gəncəvinin yaradıcılığı bu baxımdan klassik nümunədir.

Əlbəttə, bunların hamısına həmin sənətkarların yaşadığı dövr kontekstində yanaşdıqda daha maraqlı məqamlar ortaya çıxır və sənətkarın bundan məqsədli şəkildə istifadə etməsi tam aydınlığı ilə ortada görünür. Eyni keyfiyyəti XIX əsr sənətkarlarının – S.Ə.Şirvaninin, Q.Zakirin, Xalxalinin, Şükuhinin bu səpkidəki əsərlərində görmək olur.

XX əsr Azərbaycan ədəbiyyatında nağıl motivlərinə müraciət isə daha çox real mühitin yaratdığı zərurət kimi nəzərə çarpır. Yəni, əgər bir qədər əvvəldə, XIX əsrin sonu XX əsrin əvvəllərində bu üsul romantiklərin yaradıcılığında daha çox maarifləndirmə məqsədinə xidmət edirdisə, əsrin ortalarında fikrin üstüörtülü, mətnaltı ifadəsi üçün bir vasitə funksiyası daşıyır. "Cəmiyyətin islah edilib yenidən qurulmasında həlledici rol oynayan mədəni tərəqqinin əsas atributları – məktəb, ədəbiyyat, əlifba, dil, elm, mətbuat, nəşriyyat, dərslik, teatr və s. geniş müzakirə obyektinə çevrildi" [1]. Xalq ədəbiyyatı qaynaqlarından, o cümlədən də nağıl strukturundan bəhrələnmə bu yöndə xüsusi önəm daşıyırdı. Ümumiyyətlə, XX əsr Azərbaycan ədəbiyyatında bütün yüzillik boyu nağıl mövzusuna müraciətin yararlanmanın mahiyyətini aşağıdakı kimi, səciyyələndirmək olar:

a) **XX əsrin əvvəllərində maarifçi mərhələ (1900-1920).** Bu dövrdə Y.V.Çəmənzəminli, A.Şaiq, S.S.Axundov, Ə.Haqverdiyev, M.Ə.Sabir, A.Səhhət, S.Hüseyn , Ü.Hacıbəyov, F.Köçərli və başqaları xalqın, xüsusən də yeni böyüyən nəslin maariflənməsini əsas götürürdülər. Məqsədin reallaşması üçün xalq təfəkküründən gələn modellərə , o sıradan da nağıl mövzu, obraz və süjetlərindən istifadəyə üstünlük verirdilər.

b) **1920-1950-ci illər dövrü.** Siyasi mühitin dəyişməsi, Sovet totalitar idarəçilik mexanizmi ədəbi arenada ideoloji modelləri zərurətə

---

[1] Məmmədov X. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: ADPU, 2006, s. 89.

çevirirdi. Məhz bu səbəbdən də ədalətsiz şahların, xalqa zülm edən qaniçən hökmdarların neqativ formalarda bədii mətnə gətirilməsi qabarıq bir istiqamət kimi özünü göstərirdi. Bu səbəbdən də T.Şahbazinin, S.Vurğunun, M.Müşfiqin, S.Rəhimovun, M.İbrahim, M.Rzaquluzadənin, M.Təhmasibin, M.M.Seyidzadənin, Ə.Cəmilin, O.Sarıvəllinin, M.Dilbazinin və başqalarının yaradıcılığında nağıl obraz və süjetləri sinfi-siyasi və ideoloji maraqlara uyğun şəkildə mənalandırılırdı.

c) **1960-1990-ci illər.** Artıq bu mərhələdə sinfi mövqedən yanaşmalar tədricən arxa plana keçməyə başlayır. Əvvəlki mərhələdə müşahidə etdiyimiz və bir çoxluqla gördüyümüz qaniçən, zalım hökmdar obrazları fərqli formatlarda bədii mətnə gətirilir. Folklor yaddaşına, o cümlədən də nağıl mövzusuna müraciət edən bədii düşüncə etnosun özünü dərkinə, milli-mənəvi dəyər və davranış prinsiplərinə xidmət edir. Məhz bu cəhət İ.Şıxlı, İ.Əfəndiyev, İ.Hüseynov, Anar, Elçin, Y.Səmədoğlu, Ə.Cəfərzadə, İ.Məlikzadə, F.Kərimzadə, X.Hasilova, Ə.Babayeva, X.Əlibəyli, T.Mahmud, N.Kəsəmənli, M.Süleymanlı, Z.Xəlil, R.Yusifoğlu və başqa sənətkarların yaradıcılığında bir çox keyfiyyət dəyişmələrinin yaranaması ilə nəticələnir.

XX əsr Azərbaycan ədəbiyyatı üslubların, düşüncə tiplərinin, ədəbi axtarışların rəngarəngliyi və müxtəlifliyi ilə seçilən bir dövrdür. Təkcə onu demək kifayətdir ki, bu əsrdə M.F.Axundzadənin və H.Zərdabinin başladığı milli ideyanın müxtəlif səviyyələrdə gerçəkləşməsi (həm əsrin əvvəlində, həm də sonunda) uğurlu bir proses kimi davam edir. İctimai-siyasi, tarixi, ədəbi, kulturoloji dəyərlərin yeni spektrləri müəyyənləşir. Ədəbiyyat bir növ əqidələrin, məslək mübarizələrinin, eləcə də siyasi mücadilənin ağırlığını daha çox öz üzərinə götürür. İctimai həyat və ədəbi proses bütün mahiyyəti ilə yeni bir mərhələyə daxil olur. H.Zərdabinin, M.Şahtaxtlının, Ə.Hüseynzadənin, Ə.Ağayevin, M.Ə.Rəsulzadənin, C.Məmmədquluzadənin, Ö.F.Nemanzadənin və başqalarının milli düşüncənin müəyyənləşməsi istiqamətində gördükləri böyük işlər bütün XX əsr boyu bu və ya digər şəkildə ədəbi gedişata özünün təsirini göstərir. Akademik İ.Həbibbəyli XX əsrin əvvəllərindəki vəziyyəti xarakterizə edərək yazır: "Cəlil Məmmədquluzadə "Poçt qutusu" və "Usta Zeynal" kimi hekayələri ilə həmin XX əsrin əvvəllərindəki real mənzərəni canlandırmış, sadə, mənəvi cəhətdən saf, avam, dindar və sədaqətli insanların təbii obrazını yaratmış, həm də milli oyanışa və maarifçiliyə olan zərurəti qəti şəkildə ifadə etmişdir[1].

---

[1] Həbibbəyli İ. Cəlil Məmmədquluzadə. Naxçıvan: Əcəmi, 2009, s.14-15.

Əlbəttə, bunlar təkcə bədiiliyə, yaradıcının hiss və düşüncələrini ifadəyə xidmət etmirdi, burada həm də mühitdən, mühitin özünün doğurduğu problemlərdən gələn ədəbi-tarixi zərurət də vardır. Məsələn, A.Şaiqin əsrin ilk onilliyində uşaqlar üçün yazdığı "Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü həccə gedir"əsərləri və bir qədər sonra qələmə aldığı "Tapdıq dədə" mühitin daxili tələbatından doğmuşdur. M.Müşfiqin "Kəndli və ilan", "Şəngül, Şüngül, Məngül" əsərləri məhz bu səpkidə xalq nağılları əsasında yaradılmışdır.

XX əsr boyu bu ədəbi-tarixi proses eyni axarda zənginləşmələrlə davam edir. Xalq şairi S.Vurğun keçən əsrin 30-cu illərində bu məqamları vurğulayaraq yazırdı: "Xalq əfsanələri, nağılları sahəsində belə, biz əsrimizin qabaqcıl ruhu ilə səslənə bilən əsərlər yaratmalıyıq. Xalq əfsanələrinə soyuq bir nəzərlə baxan yazıçılar unudurlar ki, bütün əfsanələr xalq dühasının məhsuludur. Hər əfsanədə xalqın fəal həyatı, şüur və zövqləri, onun gələcəyə olan inam və arzuları əks olunmuşdur ki, onların bir çoxu indi də arzu olaraq, həm də yüksəliş arzusu olaraq qalır"[1]. Məhz xalq dühasının məhsulu olan bu nümunələr bütünlükdə xalqın keçib gəldiyi yolun əksidir. Ona görə də bu nümunələrə elə xalqın milli-mənəvi varlığının ifadəsi kimi də baxmaq lazımdır.

Bu baxımdan görkəmli nəsr ustası S.S.Axundovun nağıl mövzusunda qələmə aldığı çoxsaylı hekayələrini xüsusi qeyd etmək lazım gəlir. Görkəmli ədibin yazdığı hekayələrinin mühüm bir qismi ("Kövkəbi-hürriyyət", "Tutu quşu", "Qan bulağı", "Cəhalət qurbanı", "Molla Qasım", "Qorxulu nağıllar") demək olar ki, tamamilə nağıl motivlərinə köklənmişdir. Əsrin ictimai-siyasi mühiti bu sənətkarları nağıla müraciət etməyə bir növ təhrik etmişdi. Daha doğrusu, əsrin əvvəllərində realistlər bunu maariflənmənin, mühiti dərk etmənin vasitələrindən biri kimi görürdülər.

Ədəbi-tarixi mənzərədən aydın şəkildə görünür ki, "Dərzi şagirdi Əhməd", "Həsən Qaranın nağılı", "İlyasın nağılı", "Baftaçı Şah Abbas", "Padşah və Dəmirçi", "Yeddi nar çubuğu", "Bülbülün nağılı", "Yoxsul qocaynan vəzir", "Padşahla pinəçi", "Padşahla qoca" və s. kimi nağıllarımızla XX əsrin ilk onilliklərində yazıb-yaradan ədiblərin yaradıcılığı arasında olduqca güclü bağlantılar mövcuddur. Alleqorik xarakterli "Tülkü ilə canavar", "Tülkünün kələyi", "Hiyləgər tülkü", "Qoca Aslan", "Süleyman şah və qarışqa" və başqa nağıllar da keçən əsrin

---

[1] Vurğun S. Əsərləri. 6 cilddə, VI c., Bakı: Elm, 1972, s. 461.

əvvəllərində yaşayan ədiblərimiz üçün bir mövzu, ideya, üslub qaynağı olmuşdur. Yazıçılarımız xalqın zəngin söz sərvətinə müraciət etməklə təkcə bədii nümunələr yaratmaq yolunu tutmamışlar, həm də ondan cəmiyyətin problemlərinin həlli üçün bir qaynaq kimi bəhrələnmişlər. Y.V.Çəmənzəminlinin, A.Şaiqin, S.S.Axundovun, R.Əfəndiyevin, Ü.Hacıbəyovun, C.Məmmədquluzadənin, M.S.Ordubadinin, A.Divanbəyoğlunun, M.Hadinin, M.Ə.Sabirin, H.Cavidin, A.Səhhətin, C.Cabbarlının, S.Vurğunun, M.Müşfiqin, S.Rəhimovun, Ə.Vəliyevin, İ.Əfəndiyevin, Ə.Cəfərzadənin, İ.Şıxlının, Anarın, Elçinin, Y.Səmədoğlunun və başqalarının yaradıcılığında bu cəhət özünü tam aydınlığı ilə göstərir. Burada nağıl mövzusuna müraciətin eyni zamanda bir üslub hadisəsinə çevrilməsi də müşahidə olunur.

XX əsrin əvvəlləri Azərbaycanın ictimai, siyasi, mədəni həyatında problemlərin ağırlığı və gərginliyi ilə müşahidə olunur. Ona görə də yazıçı və şairlərin əksəriyyəti problemin həllini maariflənmədə, insanların mədəni səviyyəsini qaldırmaqda görürdülər. Məhz bu səbəbdən də yaranan bədii nümunələrdə əsasən aşağıdakı istiqamətlər görünürdü:

1. Siyasi mühitin özbaşınalıqlarını təqdim etmək;
2. İctimai mühit haqqında dolğun təsəvvür yaratmaq;
3. Xalqın maariflənməsi məsələsini bir problem kimi qaldırmaq;
4. Təhsili, elmi bütün problemlərin həlli üçün yeganə çıxış yolu kimi görmək;
5. İctimai mühitin mədəni səviyyəsinin yüksəldilməsini əsas vasitə kimi qəbul etmək;
6. Nağıl formullarını bədii ifadə vasitəsinə çevirmək və s.

Bütün bunlar keçən əsrin əvvəllərində yaşayıb-yaradan sənətkarların yaradıcılığında əsas istiqamət kimi görünür. Buradan da aydınlaşır ki, “bu yazıçıların məqsədi, məfkurə istiqaməti, fəaliyyət sahəsi, hətta mövzu dairəsi eyni idi. Bunların çoxu (Süleyman Sani Axundov, Abdulla Şaiq) zəmanəsinin ziyalı ailəsindən çıxmış adamlar idilər. Bu ədiblərin ən əsas fəaliyyət sahəsi və meydanı məktəb idi. Özlərinin keçdiyi təlim-tərbiyədən fərqli olaraq bu yazıçılar “üsuli-cədid” məktəbinin, yeni qayda ilə təhsil və tərbiyənin qızğın tərəfdarı idilər. Bu yolda əllərindən gələni əsirgəmirdilər”[1]. Məhz ona görə də onların bütün düşüncəsi, təsəvvürləri

[1] Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, s. 233.

problemlərin həlli anlamında maariflənməyə yönəlmişdi. Romantiklərdən fərqli olaraq onlar hadisələrin həllini real həyatla bağlayırdılar.

S.S.Axundovun “Qorxulu nağıllar”ı da məhz həmin ənənənin davamıdır. Həmin silsiləyə daxil olan “Əhməd və Məleykə”, “Abbas və Zeynəb”, “Nurəddin”, “Qaraca qız”, “Əşrəf” (beş nağıl) əsərlərinin hər biri özünün ruhu, strukturu, motivi və s. komponentləri ilə nağıl ənənəsinə söykənir. “Qorxulu nağıllar” silsiləsinə daxil olan “Qaraca qız”ın yarandığı vaxtdan təxminən yüz illik bir vaxt keçməsinə baxmayaraq, yenə də təsiri və dəyəri kifayət qədərdir.

XX əsrin birinci yarısında nağıl mövzusuna müraciət edən sənətkarlar arasında daha çox diqqəti cəlb edənlərdən biri Y.V.Çəmənzəminlidir. Çünki onun xalq yaradıcılığının toplanması, nəşri və tədqiqi sahəsində həyata keçirdiyi elmi fəaliyyət bədii yaradıcılığına da öz təsirini göstərirdi. Onun “Qızlar bulağı”, “Qayınananın oyunları”, “Fokusnik”dən”, “Xanın qəzəbi” və s əsərlərinin mahiyyətində nağıl motivləri durur. “Məlik Məhəmməd” hekayəsi isə demək olar ki “Məlikməmməd” nağılının özüdür.

M.Ə.Sabirin yaradıcılığında da nağıl motivlərinə müraciət az deyildir. Onun uşaqlar üçün yazdığı şeirlərin böyük əksəriyyəti demək olar məhz bu motivlərə, uşaqların duyğularını nağıl dili ilə ifadə etməyə meyillidir. “Ağacların bəhsi”, “Qarğa və tülkü”, “Təbib ilə xəstə”, “Qoca bağban”, “Qarınca”, “Molla Nəsrəddinin yorğanı”, “Uşaq və pul”, “İsgəndər və fəqir”, “Camışçı və sel”, “Molla Nəsrəddin və oğru”, “Hörümçək və ipək qurdu”, “Artıq alıb əskik satan tacir” kimi əsərlərində məhz müəllifin cəmiyyətin çatışmazlıqlarını, insanların xarakter qüsurlarını, cahilliyini, tamahkarlığını müxtəlif səpkilərdə ifadə edir. Adlarından da göründüyü kimi, bir hissəsində alleqorik motivlər (“Ağacların bəhsi”, “Qarğa və tülkü”) üstünlük təşkil edirsə, digər bir qrupunda nağılvari lətifə tərzi (“Molla Nəsrəddinin yorğanı”, “Molla Nəsrəddin və oğru”) müşahidə olunur.

XX əsrin əvvəllərində, daha doğrusu, ilk onilliklərində ədəbiyyatı haradan başlamaq problemi qalxanda məsələyə ən doğru və obyektiv münasibət bəsləyənlərdən biri S.Hüseyn idi. Görkəmli yazıçı bu məsələdən bəhs edərək xüsusi olaraq vurğulayırdı ki, “məlum olduğu üzrə, bizim olduqca zəngin bir el ədəbiyyatımız var. “Aşıq Kərəm”, “Koroğlu”, “Qərib”, “Tahir və Zöhrə”, “Arzu və Qənbər” kimi hekayətlər el ədəbiyyatımızın məhsulu olduğundan tarixi ədəbiyyatımızın ilk səhifələrini

onlardan başlamalıyıq" [1]. S.Hüseyn öz əsərlərində də xalqın zəngin şifahi yaradıcılığından bəhrələnirdi. Onun müxtəlif illərdə yazdığı hekayələrindəki rəvayət, əfsanə, dastan, nağıl motivlərindən bəhrələnmə bunu tam aydınlığı ilə göstərir. Məsələn, görkəmli ədibin "Ağ at və ağ çuxa" adlı maraqlı nağıl-hekayəsi var. Əsər özlüyündə bizim tarixi nağıllarımızı xatırladır. Müəllif hadisələri diqqəti cəlb edəcək bir tərzdə, nağıl təhkiyəsində təqdim etmişdir. Bu hekayənin mahiyyətində Azərbaycanın, Bakının işğalını qəbul etməyən və buna qarşı qəhrəmanlıqla mübarizə aparan mərd, cəsur Mahnigarla onun sevgilisi Aslanın qəhrəmanlığı təsvir edilmişdir. Hekayənin nağıl-masal səciyyəsi daşıdığını elə ilk cümlədən bəyan edən görkəmli ədib yazır: "Ağ at ilə ağ çuxanın əhvalatı xəyali bir masaldır. Bəlkə masal surətində bir həqiqətdir və ya həqiqət şəklində bir xəyaldır. Mən bunu təhlil etməyəcəyəm, yalnız olduğu kimi söyləyib keçəcəyəm.

Qoca kişi və qarı indi deyil, sabiqdə böylə nəql ediyordular"[2]. Bu başlanğıc epizoddur və müəllifin yazıçı üslubunu, hadisəyə özünəməxsus yanaşma bacarığını müəyyənləşdirir. Hekayə elə bu axarda da nağılvari təhkiyə ilə davam edir.

Azərbaycan poeziyasına öz fitri istedadı, ağrılı taleyi ilə adını yazmış sənətkarlarımızdan biri də M.Müşfiqdir. Onun zəngin yaradıcılığı xalq ədəbiyyatı ənənlərinə söykəndiyi üçün olduqca təsirli və yaddaqalandır. "Həsrətli qarı" (1927), "Yeddi Aşıq" (1936-1937), "Çoban" (1933), "Sındırılan saz" (1937), "Şəngül, Şüngül, Məngül" (1934) və s. sırf xalq ədəbiyyatı motivləri ilə bağlı nümunələrdir.

Bütün bunlar XX əsrin əvvəllərində ictimai, siyasi mühitdə əks etdirmək, mövcud gerçəkliyi dolayı şəkildə xalqa çatdırmaq istəyindən irəli gəlirdi. Göründüyü kimi, bu məqsədlə də ədəbi mühiti yaradıcı şəxslərin demək olar ki, hamısı məhz xalq yaradıcılığı nümunələrindən, o cümlədən nağıllardan geniş şəkildə bəhrələnmiş, fikir və düşüncələrini çatdırmaq üçün, nağıl mövzusunu daha münasib bir vasitə hesab etmişlər.

Birinci fəslin II bölməsi "**Nağıl mövzusuna müraciətin keyfiyyətcə yeniləşməsi"** adlanır. Bilindiyi kimi, sovetlər dönəmində nağıl mövzusuna müraciət bir çox özünəməxsusluqlarla səciyyələnir. Əsrin əvvəllərindəki nağıl motivlərinə müraciətdə cəmiyyətin mədəni səviyyəsinin yüksəldilməsi, çatışmazlıqların bir qüsur kimi ifadəsi özünü göstərirdisə və yanaşmalarda daha çox maarifçi realistlərin baxışlarına üstünlük verilirdisə,

---

[1] Əfəndiyev P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, s. 477.
[2] Hüseyn S. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, s. 328.

sovet dönəminin 20-30-cı illərində ictimai-siyasi mühitin müəyyənləşdirdiyi prinsiplərə əsaslanma üstünlük təşkil edirdi. Bu, sovetlər dönəminin birbaşa özü ilə bağlı məsələdir. Çünki imperiyanın gəlişi, yaşayışı və çökməsi özlüyündə ədəbi mühitin bütün tərəfləri ilə içindən keçirdi. Əfsanə, rəvayət, nağıl, dastan, atalar sözü, lətifə, bayatı, nəğmə və s. kimi örnəklər bu proses boyu daim yazılı ədəbiyyat üçün bir mənbə, istinad yeri olmuşdur.

Bu dövrün poeziya, nəsr və dramaturgiyasında nağıl mövzusunda yazılmış əsərlərdə şahlar, xanlar, bəylər istismarçı sinif nümayəndələri kimi qəddar və qaniçən obrazında göstərilir, sadə xalq nümayəndələri isə məzlum və istismar olunan əzabkeş rolunda verilirdi. Məsələn, Əfəndiyevin, "Apardı sellər Saranı", "Qarı dağı" hekayələri, M.Təhmasibin "Bir qalanın sirri" pyesi bu qəbildəndir.

Keçən əsrin altımışıncı illərində ictimai-siyasi mühitdəki yumşalmalar, repressiya və deportasiya, sürgün bəraətləri ədəbi mühitdə də yeni münasibətləri formalaşdırır. Artıq yeni tarixi-siyasi şərait və ona bağlı olan ədəbi-mədəni mühiti özünün reallıq və yeni düşüncə prizmasından məsələlərə yanaşır. Məhz R.Rzanın, İ.Hüseynovun, İ.Şıxlının, B.Vahabzadənin, M.Arazın, N.Həsənzadənin, Y.Səmədoğlunun, Anarın, İ.Məlikzadənin, Elçinin, M.Süleymanlının və başqalarının əsərlərində həmin keyfiyyətlər bu və ya digər dərəcədə özünə yer tapmağa başladı. Nağıl təhkiyəsi və nağıl forması bir vasitə kimi yazıçıların yazı manerasına daxil oldu. Burada imperiyanın siyasi müstəvidə xalqlara qarşı yeritdiyi məkrli siyasətin bir növ təhlili aparıldı. Ancaq onu da əlavə edək ki, həmin çatışmazlıqların, qüsurların verilməsi birbaşa deyildi. Hansısa əsərdə epizodik şəkildə, bəzən bir cümlə ilə, bəzən mətnaltı vasitələrlə, obrazların dili ilə və yaxud da hadisələrin təsvirini tarixin dərinliklərinə daşımaqla baş verirdi. Ona görə də XX əsrin siyasi problemlərinin çoxluğu və mürəkkəbliyi ədəbiyyatın özündə də düşüncə və ifadə müxtəliflikləri ilə müşahidə olunur. Bunlar, hətta, xalq yaradıcılığının ayrı-ayrı janrlarına müraciətin özündə də görünür. Məsələn, 40-cı illər ədəbiyyatında bütün diqqət demək olar ki, müharibə düşüncəsinə, vətən sevgisinin ifadəsinə yönəlmişdi. Artıq 60-cı illər ədəbiyyatında tədricən ədəbi-estetik düşüncə milli ruhun axtarışları və imperiya ideologiyasının mahiyyətini açmağa üz tutur. Bir növ ədəbiyyatda yeni tendensiyaların nümayişi özünü göstərməyə başlayır. Bu mənada İ.Hüseynovun "Saz", "Faciə", "Kollu Koxa", "Şəppəli", "Tütək səsi", "İdeal" və s. əsərləri 60-cı illər ruhunun ifadəsidir. Yazıçı bütün mənfiliklərə nağıl obrazından istifadə edərək "hamısı Div irsidir" şəklində üstüörtülü məna verir. İ.Şıxlının "Həkimin nağılı" (1947),

“Ayrılan yollar” (1957), “Dəli Kür” (1957-1966), “Məni itirməyin” (1984), “Namərd gülləsi” (1991) kimi müxtəlif janrlarda qələmə aldığı epik əsərlərin mahiyyətində də, məhz imperiya ruhuna mətnaltı yazıçı etirazı öz əksini tapıb. Azərbaycan ədəbiyyatının digər nümayəndələrinin yaradıcılığında da belə müraciətlər, dövrün və mühitin çatışmazlıqlarının ifadəsi vardır. Həmın qüsurların cəmiyyətə çatdırılmasının yollarından biri də, yuxarıda dediyimiz kimi, nağıl formulundan istifadə idi. Bu mənada nağıla, daha doğrusu, nağıl mövzusuna müraciət bir forma, ifadə hadisəsi kimi mühüm əhəmiyyət daşıyırdı. Məhz R.Rzanın, İ.Hüseynovun, İ.Əfəndiyevin, İ.Şıxlının, M.Dilbazinin, H.Arifin, M.Arazın, Y.Səmədoğlunun, İ.Məlikzadənin , N.Həsənzadənin, Anarın, Elçinin, M.Süleymanlının və başqalarının yaradıcılığında bu keyfiyyət aydın şəkildə özünü göstərir. Məsələn, İ.Əfəndiyevin “Geriyə baxma, qoca” romanında “Möhnət qocanın nağılları” silsiləsi bütünlükdə nağıl mövzusuna söykənir.

Görkəmli sənətkar “Geriyə baxma, qoca” romanında sırf nağıl formul və motivlərindən, nağıl ənənəsindən gələn bədii-üslubi keyfiyyətlərə üstünlük vermiş və bununla əsərin dəyərini xeyli dərəcədə artırmışdır. Onu da əlavə edək ki, ayrı-ayrı əhvalatların təqdimində, xüsusən də başlama manerasında da nağıl üslubu, nağılvari təhkiyə özünü göstərir. Məsələn, “İndi sizə kimdən danışım, Kamırxan qarıdan” bölməsi boyaboy nağıl üslubunda hekayə olunur. “Kamirxan qarı öz əməlində olsun, indi eşit çoban Mahmuddan” əsərdəki “Qızyetərlə Çoban Mahmud nağılı” bölməsi müəllifin əsəri nağıl manerasında yazmağa üstünlük verməsinin əyani təzahürüdür.

Xalq yazıçısı Süleyman Rəhimov nağıl mövzusuna böyük maraq göstərən və bu istiqamətin XX əsrin ikinci yarısından etibarən keyfiyyətcə yeniləşməsində mühüm rol oynayan qüdrətli söz ustasıdır. Onun nağıl, əfsanə və rəvayət mövzusuna müraciəti və bu səpkidə əsərlər yaratması yaradıcılığının bütün mərhələlərində müşahidə olunur. Hətta, kitablarında “Əfsanələr” başlığı altinda verilən “Gülən balıq” (1963), “Ovqan və ilan” (1963), “Güzgü göl əfsanəsi” (1967), “Gülsabah”(1968), “Arpaçay əfsanəsi” (1978), “Kəsilməyən kişnərti” (1968) və s. hekayələrinin mahiyyətində də əslində nağıl motivləri, strukturu dayanır. Burada xalqın faciələrinin, itkilərinin kökləri və məkrli düşməninin əsil mahiyyəti barədə çox ciddi rəmzi-məcazi işarələr görünür.

Xalq yazıçısı Əzizə Cəfərzadənin yaradıcılığında da nağıl mövzusuna müraciət tez-tez müşahidə olunur. Onun “Çörək”, “Qarı və pişik”, “Yumurta əhvalatı” kimi nağıl-hekayələrində qaldırılan problemlər

tarixi-ibrətamiz məzmunla yanaşı, müasirliyi və aktuallığı ilə də diqqəti cəlb edir.

Keçən əsrin 60-80-ci illər ədəbiyyatında ən aktual, həm də konseptual səviyyədə diqqəti cəlb edən cəhət sovetlər dönəminin müəyyənləşdirdiyi şablon və sterotiplərdən uzaqlaşma meyli idi. Çünki sovetlər dönəmində ideologiyanın özünün müəyyənləşdirdiyi sərhədlər var idi. Bu istiqamətdə çoxsaylı əsərlər də yazılmışdı. Lakin sovet totalitar rejiminin müəyyənləşdirdiyi ideologiya sonrakı onilliklərdə təhlillərə, siyasətdəki təhlükəli tendensiyaların mövcudluğuna dolayı etirazlara, şərhlərə gətirib çıxardı. 60-cı illər ədəbiyyatı bu mənada bütünlükdə ədəbi mühitə yeni ab-hava ilə daxil oldu və bütünlükdə sonrakı onillikləri əhatə etdi[1]. Bu proses bir növ özlüyündə 80-ci illər ədəbiyyatının təkanverici qüvvəsinə çevrildi. Məhz İ.Hüseynovun, İ.Əfəndiyevin, İ.Şıxlının, M.Dilbazinin, B.Vahabzadənin, M.Arazın, X.R.Ulutürkün, H.Arifin, Y.Səmədoğlunun, İ.Məlikzadənin, S.Əhmədovun, N.Həsənzadənin, Anarın, Elçinin, M.Süleymanlının və başqalarının yaradıcılığında milli düşüncədən gələn meyllər özlüyündə imperiya maraqlarına tabe olmadı. Bununla da ədəbiyyat siyasi ideologiyanı qabaqlamaq, onun özünə mövqe nümayiş etdirmək yolunu tutdu. Bütün bunlar ədəbi mühitdə yanaşma və münasibət fərqliliklərini ortaya qoydu. İ.Hüseynovun "İdeal", "Saz", "Tütək səsi", "Kollu Koxa", İ.Şıxlının "Dəli Kür", "Məni itirməyin", "Ayrılan yollar", "Ölən dünyam", Elçinin "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü", "Bülbülün nağılı", Yusif Səmədoğlunun "Xəzri", "Yaddan çıxmış sözlər", "Qətl günü", M.Süleymanlının "Köç", "Dəyirman" və s. kimi əsərlərinin yaranmasına gətirib çıxardı. Beləliklə, ədəbiyyatın sosial-siyasi mühitə münasibətində bir mahiyyət dəyişiklikləri özünü göstərdi. Nağıl bir forma kimi ədəbi mühitin fikri ifadə marağında dayandı. Məsələn, O.Sarıvəllinin "Qocanın nağılları", İ.Şıxlının "Həkimin nağılı", İ.Əfəndiyevin "Valehlə Sarжköynəyin nağılı", "Qəhrəman ilə bülbülün nağılı", "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı", Elçinin "Bülbülün nağılı", M.Süleymanlının "Armud ağacının nağılı" və s. əsərlər buna nümunədir. Əlbəttə, bu tip əsərlərdə adından göründüyü kimi, nağılçılıq, nağıl təhkiyəsi, obrazların və hadisələrin uzaq keçmişlərə-nağıl zaman və məkanına köçürülməsi var. Onun mahiyyətində isə yazıçının öz yaşadığı zamanın və mühitin problemlərinə yönəlmiş mətləbləri qərarlaşır.

[1] Hacıyeva M. Folklor poetikası. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2006, s. 111-115.

Xalqın zəngin yaradıcılığında, folklor simvolikasında milli-mənəvi dəyərlərin işarələnməsi bütünlükdə yazılı ədəbiyyatın uğurlu inkişafına, bədii-estetik axtarışlarına istiqamət verir. Xalq yazıçısı Yusif Səmədoğlunun "Qətl günü" romanındakı "Baba Kaha" obrazı mifoloji nağıl mənşəli olsa da, simvolika baxımından özlüyündə tarix və həyat anlamında cəmiyyətin və insanlığın problemlərini əks etdirir. Məsələn, Baba Kahanın "gəlirəm ki, haqq-hesab çəkəm, gəlirəm ki, bu ikiayaqlı, dəmir libaslı, nizəli-qalxanlı, aylarla su üzü görməyən, kirdən-pasdan sifətləri qaralıb mis rənginə çalan bu ikiayaqlı şeytanlar niyə belə qudurublar? Gəlirəm ki, yuxusuz gözlərdəki kinin, hiddətin səbəbindən agah olam, ... ikiayaqlı bəndələr bu bəlalı dünyadan nə istəyirlər? Gəlirəm ki, düşərgənin lap yaxınlığında meyitləri üst-üstə qalayıb, çürüyən cəsədlərin üfunətini hiss etməyən, döyüş yoldaşlarını basdırmağa belə gücü qalmayan, günəş işığından gizlənən bu ikiayaqlı qanadsız yarasalar nə vaxt qandan doyacaqlar"[1]. Göründüyü kimi, bu suallar çox ciddi, həm də özündə kifayət qədər ağır məsələləri ehtiva edir. Məsələnin bu cür qoyuluşunda isə sovetlər dönəminin mahiyyətini verməyə və dolayı ciddi-cəhdlər özünü göstərir. Bütün olanların əsasında da daha çox bu dayanır.

Keçən əsrin 60-80-ci illər ədəbiyyatında diqqətçəkici cəhətlərdən biri düşüncə rəngarəngliyi idi ki, bu da özünü həm də xalq yaradıcılığının geniş və hüdudsuz zənginliyindən bəhrələnmədə göstərirdi. İ.Şıxlının "Namus qaçağı", "Namərd gülləsi", "Ölən dünyam", Y.Səmədoğlunun "Xəzri", "Yaddan çıxmış sözlər", İ.Məlikzadənin "Gümüşgöl əfsanəsi", Anarın "Ağ qoç, qara qoç", M.Süleymanlının "Armud ağacının nağılı", "Füşkürək", "Quru kəllə" əsərləri cəmiyyətin çeşidli problemlərinin nağıl müstəvisində təqdimini əsas götürmüşdü. Burada isə əsas istiqamətlərdən biri sənətkarın qaldırdığı problemə nağıl kontekstindən yanaşma ustalığıdır. İ.Şıxlının "Ölən dünyam" (1995) romanının "Epiloq" hissəsində sovet siyasi sisteminin totalitar mahiyyətini əks etdirən nağılvari yekun var. Orada deyilir: "Dünyaya çox buynuzlu-buynuzlu cahangirlər gəldi. Biri özündən əvvəlkini bəyənmədi, o biri sonrakını. Biri dünyanı qana çalxadı. Biri bəşər övladının min illər boyu yaratdığı qayda-qanunları zor ilə tapdaladı və ortalığa yeni həyat tərzi atdı... Biri o birisinin əleyhinə, biri o birisinin tərsinə. Hamısı da ədalətdən, vicdandan dəm vurdu. Xalqlar tayqalara, Sibirə sürgün edildi. Başqa birisi hakimiyyətə gələrkən bu cəza alanları

---

[1] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, s. 11-12.

günahsız müqəssirlər adlandırdı”[1]. Buradakı sərt nağıl üslubunda hər sözün, hər cümlənin özünün çəkisi var. Bu sərt nağıl ittihamı dünya cahangirlərinin mahiyyətini, həqiqət, vicdan anlamı maskası altında gerçəkləşdirdikləri dəhşətləri ortaya qoyur. Burada birbaşa yazıçının öz dövründəki hökmdarların pərdəarxası, maskalı fəaliyyətlərinə dolayı etiraz da qərarlaşıb.

Keçən əsrin 50-ci illərinin sonu, 60-cı illərinin əvvəllərində yaradıcılığa başlayan Anarın keçdiyi sənət yolu özünün zənginliyi, həyata, həyat hadisələrinə yanaşma tərzi və gerçəkliyin bədii ifadə məharəti ilə maraq doğurur. Onun yazıçı təfəkküründə, daha doğrusu, yazı manerasında, təhkiyəsində araşdırılmalı problemlərdən biri nağıl mövzusuna müraciətin forma və üsulları ilə bağlıdır. “Yaxşı padşahın nağılı”, “Ağ qoç, qara qoç” əsərləri bu baxımdan kifayət qədər ciddi araşdırmalara yol açır. Bu o ədəbi-tarixi mərhələdir ki, “sosial motivlərin qüvvətlənməsi nəsrin diqqətini, predmet və hədəfini İnsanın dünyəvi mahiyyəti, bilavasitə daxili aləminin tədqiqində cəmiyyət məsələləri üzərinə keçirdi, insanın sosial məzmunu ön plana çıxdı, varlıq haqqında düçüncə sırasını ən uğurlu nümunələrdə “cəmiyyət fəlsəfəsi” əvəz etdi, ümumən isə qəti demək olar ki, nəsrdə inikas planı yenidən düşüncə qatını üstələdi”[2]. “Yaxşı padşahın nağılı”, “Vahimə”, “Qırmızı limuzin”, “Gürcü familyası”, “Asılqanda işləyən qadının söhbəti”, “Ağ qoç, qara qoç”, “Mən, sən, o və telefon” və s. kimi müxtəlif səpkili əsərlərindəki bədii axtarış və tapıntılar bunun əyani göstəricisidir. Anar bu bünövrəni, özülü bütün sonarakı dönəm yaradıcılığı ilə möhkəmləndirən yazıçılarımızdandır. Ona görə də onun əsərlərinin poetikası müxtəlif istiqamətli təhlillərə, o cümlədən də nağıl mövzusundan istifadə imkanlarının öyrənilməsinə geniş imkanlar açır. Burada nağıl epik mətnlə bağlı struktur məsələləri, janr spesifikası, yazıçı təhkiyəsi ilə nağıl üslubunun sintezi, mövzu aktuallığı və s. kimi incə yaradıcılıq məsələləri var. “Yaxşı padşahın nağılı” və “Ağ qoç, qara qoç” əsərləri bu mənada çoxqatlı bədii imkanları olan əsərlərdir. Anar “Yaxşı padşahın nağılı”nı ötən əsrin yetmişinci illərində qələmə almışdır. “Yaxşı padşahın nağılı” ilə 2000-ci illərin əvvəllərində yazıya alınmış“Ağ qoç, qara qoç”əsəri arasında böyük zaman məsafəsi vardır. Bu uzun və ardıcıl yol yazıçının bir yaradıcı kimi xalq ədəbiyyatından daimi olaraq bəhrələndiyini, mühitə və zamana uyğun cəmiyyətin problemlərini təqdim etmək məharətini göstərir. “Yaxşı padşahın nağılı”nda yazıçı nağıl mövzusuna istinad edərək mətnaltı yazı

---

[1] Şıxlı İ. Seçilmiş əsərləri. 2 cilddə, I c., Bakı: Şərq-Qərb, 2005, s. 363.
[2] Əlişanoğlu T. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı: Elm , 2006, s. 287

üsulu ilə 1970-ci illərdəki sovet cəmiyyətini, xüsusən də L.İ. Brejnev dönəminin mənzərəsini canlandırmağı qarşısına məqsəd qoymuş, bu istəyinə də məharətlə nail ola bilmişdi. Əslində əsərdəki "yaxşı padşah" obrazı Brejnevin özü idi. Onun hərəkət və davranışlarındakı həyatdan, gerçəklikdən uzaqlığı, cəmiyyətdə hökm sürən yalan, saxtakarlıq, rüşvətxorluq, mənəvi çürümə və sosial-siyasi böhranı yazıçı məhz nağıl manerasından istifadə üslubi ilə dolayı şəkildə oxucularının diqqətinə çatdırırdı.

"Ağ qoç, qara qoç" əsərində nağıl mövzusundan istifadə üsulu daha mürəkkəb və çoxqatlıdır. Burada yenə də hadisələrin müxtəlif tarixi istiqamətlərə – keçmişə, indiyə və gələcəyə aparılması özünü göstərir. Anar məşhur "Məlikməmməd" nağılındakı süjet motivlərindən və həmin mətndəki baş qəhrəmanın – Məlikməmmədin obrazından istifadə edərək özünün çeşidli fikir və mülahizələrini söyləmişdir. Burada yenə də nağıl süjet və obrazlarının arxasına çəkilərək bu günümüz və gələcəyimizlə bağlı ehtimal oluna biləcək hadisələr diqqət önünə çəkilir. Əslində Azərbaycanın gələcəyinin Məlikməmmədi zülmətdən çıxaran Ağ qoça –işıqlı, ümidli gələcəyəmi, yoxsa Qara qoça – Qərbin və ya Şərqin məkrli oyunlarınamı bağlı ola biləcəyi yazıçını narahat edən sualdır. O, bu suallara məhz nağıl mövzusundan gələn obraz və motivlərə istinad edərək müxtəlif cavablar axtarır.

Maraqlıdır ki, Anar bu suallara cavabı həm də postmodern üsulla axtarır. Onun nağılvari şəkildə qurduğu üç dünya (milli Azərrbaycan, Şərq-islam təsirinə düşmüş bir mövhumat ölkəsi və Qərbin alətinə çevrilmiş özündən bixəbər bir məmləkət) postmodern üsulla biri-birini əvəz edir. Sonda yazıçı nağıl mövzusundakı Ağ qoç və Qara qoç motivinə qayıdaraq çıxış yolunu Ağ qoça yetişməkdə görür. Bu yol qurtuluş və milli müstəqillik yoludur!

Göründüyü kimi, 60-cılar ədəbi nəslinin və onların sonrakı onilliklərindəki davamçılarının nağıl mövzusunu əks etdirən dərin məzmunlu əsərləri bu istiqamətə önəm verilməsinin bir neçə mühüm səbəbə söykəndiyini söyləməyə imkan verir:

a) nağıl mətninə məxsus keyfiyyətlər – süjet, motiv, obraz və təhkiyə usulları xəlqi koloritin, folklor ruhunun əsas ifadə vasitələrindən biri kimi yazıçının dil və üslubuna zənginlik gətirir.

b) bu keyfiyyət yazıçının folklor epik ənənəsini yazılı ədəbiyyatda uğurla və yaradıcı şəkildə davam etdirdiyini göstərir.

c) yazıçı nağıl mövzusuna müraciət etməklə öz fikir və mülahizələrinin dolayı şəkildə, mətnaltı yazı manerası ilə çatdırılmasına nail ola bilir.

Beləliklə, 60-80- cı illər ədəbiyyatında qələm sahiblərinin nağıl mövzusuna müraciət əsasında qələmə aldığı əsərlər həm folkordan gələn keyfiyyətləri, həm də yazıçının öz bədii təxəyyül imkanlarını yüksək səviyyədə təqdim edə bilən unikal epik örnəklər kimi səciyyələnir.

Dissertasiya işinin II fəslində **“Nağıl mövzusuna müraciətin forma və üsulları”** təhlilə cəlb edilmişdir. Bu fəslin I bölməsi **“Nağıl mövzusunun ənənəvi-maarifçi təqdimatındakı sənətkarlıq axtarışları”** adlanır. Nağıl mövzusuna müraciətin ilkin mərhələsi kimi səciyyələnən əsrin əvvəllərində yazıçı və şairlər məhz maarifçilik mövqeyindən çıxış edərək tez-tez nağıl mövzu, süjet və motivlərinə üz tuturdular. Maraqlıdır ki, həm bu dönəmdə, həm də bütün sonrakı mərhələlərdə nağıl mövzusunu yazılı ədəbiyyatla sintezə girmiş şəkildə, nağıl-hekayə, nağıl-povest, nağıl-roman, nağıl-poema, nağıl-təmsil, nağıl-dram müstəvisində izləmək lazım gəlir.

Keçən əsrin əvvəllərində bu tip əsərlərin yazılması maariflənmə ehtiyacından doğan zərurət kimi ədəbiyyatın qarşısında dururdu. Çünki təhsil, xalqın maariflənməsi, məktəbdarlıq ictimai-mədəni mühitdə əsas məsələlərdən biri olaraq aktuallıq kəsb edirdi. S.M.Qənizadə, R.Əfəndiyev, H.Zərdabi, A.Şaiq, Y.V.Çəmənzəminli, M.Ə.Sabir, A.Səhhət, Yusif Əfəndizadə, Əlisəttar İbrahimov, Əlabbas Müznib, Əlimişan Hüseynzadə, Əli Ülvi, Hacı Mirağa Mirmöhsünzadə Haceh, Camo bəy Aciz Şirvani, Əli Nəzmi, Məhəmmədağa Sidqi, Cabbar Əsgərzadə, İsmayıl Həqqi, Abdulla bəy Əfəndizadə, Məhəmməd Qarayev, Ağabəy İsrafilbəyov, Şəfiqə Əfəndizadə və başqaları bu istiqamətdə əsərlər yaratmağa xüsusi önəm verirdilər. Bu tip əsərlərin yaranmasında ən çox nağıl, hekayət, əhvalat, rəvayət mövzularından bəhrələnilirdi. Burada əsas olan təsirlilik, aydınlıq və hamının başa düşəcəyi anlaqlı dil idi. Maariflənmənin prinsipləri əsasında qələmə alınan bu nümunələr eyni zamanda mövzu və məzmunca baxımından da fərqlənirdi.

Nağıllara müraciətin özündəki forma və üsulların rəngarəngliyi bütün tərəfləri ilə yazıçının məqsədini işarələyir. Mətn təsvir tipi kimi cəmiyyətdə baş verənlərin, olanların təsvir, təqdim və yaşam hadisəsinə çevrilir. Ona görə də nağıl formullarında zaman və məkanın hər birinin özünün bədiiliyə, hadisə tipinə, məzmuna və yazıçı məqsədinə hesablanmış ayrıca funksiyası və mətn çəkisi vardır. Zaman formulunda bunlar ümumilikdə bir neçə istiqamətdə aydınlaşmanı aktuallaşdırır:

a) zaman formulunda yazıçı idealının müəyyənləşməsi;

b) mətnin işarələdiyi zaman problematikası;

c) nağıl zamanının hekayə-nağıl, təmsil-nağıl,poema-nağıl zamanına gətirilməsinin məqsəd və səbəbləri;

d) nağıl formulunda nağılın ehtiva etdiyi zamanla yazıçının yaşadığı zaman arasında bağlantılar;

Məkan formulunda da bütün təsvirlər yazıçının məqsədini, təsvir etmək istədiyi hadisənin cəmiyyətin problemlərinin bir hissəsi olaraq görünüşünü və onun həllini çevrələyir. Çünki sənətkarın məqsədində olan hər şeyin gətirilməsi dayanmır. Burada problem aktuallığından əlavə, baş verənlərin çatdırılması zərurəti kimi ciddi bir məsələ də dayanır. Ona görə də bütün sənətkarlar təqdim üçün forma aktuallığını, onun seçiminin münasibliyini diqqət mərkəzində saxlayırdılar. Nağıl formullarından gətirilən struktur, təsvir və ifadə formullarının hər biri yazıçı məqsədindən keçir, eyni zamanda həmin məqsədin ifadəsinə çevrilirdi. Məhz yazıçı məqsədində bu formulların hər birinin yeri və işarələdiyi funksiya yükü vardır. Məkan formulunda bunlar aşağıdakı istiqamətdə müəyyənləşməni və təhlilləri aktuallaşdırır:

a) məkan formulunda yazıçı idealının müəyyənləşməsi;

b) mətnin işarələdiyi məkanın (mühitin) problematikası;

c) yazıçının yaşadığı məkanın informasiyası;

ç) nağıllarda məkan formulunun mahiyyəti;

d) nağıl-hekayə, nağıl-təmsil, nağıl-povest, nağıl-poema, nağıl-dramda məkan formulu;

e) nağıl məkan formulunun yazılı ədəbiyyatdakı semantikası;

ə) məkan formulu son olaraq poetik fiqur kimi və s.

XX əsrin ayrı-ayrı sənətkarlarının yaradıcılığından verdiyimiz nümunələr məsələnin təkcə məzmun anlamında əhəmiyyət kəsb etdiyini müəyyənləşdirmir. Burada mövzunun, problemin ifadəlilik tərəfinin də xüsusi dəyər qazandığını və əsərin (nağıl-hekayə, nağıl-povest, nağıl-roman, nağıl- təmsil, nağıl -poema və s.) bütövlüyünə xidmət etdiyini göstərir. Məsələyə dövrün, mühitin zərurəti və ehtiyacı müstəvisində diqqət yetirilməsi aktuallığını da əlavə etdikdə həmin fiqurların əhəmiyyət dərəcəsi bir qədər də artır. Keçən əsrin əvvəllərində yaşayıb-yaradan sənətkarların nağıl strukturuna müraciəti cəmiyyətin sosial vəziyyətinin hadisəsi idi.

Xalq yaradıcılığından ustalıqla bəhrələnmənin əsas keyfiyyətlərindən biri dilin poetik imkanlarından bacarıqla istifadə etməkdir. Bu səbəbdən də yazıçı və şairlərimiz xalq yaradıcılığının bütün imkanlarından

bol-bol istifadə etmək məqsədində olmuşlar. Ona görə də, nağılın struktur potensialı onun mahiyyətində olan bütün məsələlərə diqqət yetirmənin gərəkliyini işarələyir. Nağıllardakı daxili formullar təkcə qəhrəmanın xarakterini, daxili və xarici portretinin mahiyyətini açmaqla da yekunlaşmır. Burada həm də nağıl qəhrəmanlarına aid edilən bütün predmetlər, fəaliyyətini, hərəkətini ifadə edən, onunla dialoqa girən bütün qütblər, sehrli və başlanğıc formullara xarakterik olan nə varsa hamısı cəmləşir.

Bütün bunlar keçən əsrin əvvəllərində maarifçi düşüncəsinin, yazıçı qayəsinin ifadəsində müxtəlifliklə səciyyələnəcək forma və üsul axtarışında görünürlər.

a) sırf nağıl sonluqlarına bənzər nümunələr;

b) nağıl sonluqlarına bu və ya digər dərəcədə yaxınlaşan bədii nümunələr;

c) nağıl sonluqları ilə yanaşı, müəllif əlavələrini də özündə ehtiva edən nümunələr;

d) bütünlükdə sonluq anlamında nağıl sonluqlarının forma və prinsiplərinə uyğun gəlməyən nümunələr.

Beləliklə, əsrin əvvəllərində nağıl formullarına müraciətin forma və üsullarının tədqiqi sonrakı mərhələdə bir ənənə kimi davamının necəliyini ararşdırmağın zəruriliyini də ortaya qoyur.

İkinci fəslin **“Nağıl mövzusuna müraciət mətnaltı manera kimi”** adlı ikinci bölməsində göstərilir ki, XX əsr Azərbaycan ədəbiyyatında nağıl mövzusuna müraciətin forma və üsullarından danışarkən mətnaltı yazıçı manerası məsələsinə ayrıca diqqət yetirmək lazım gəlir. Məlum olduğu kimi, XX əsr mürəkkəb bir epoxa kimi öz başlanğıcından sonuna qədər ziddiyyətlərlə, problemlərin gərginliyi ilə səciyyələnmişdir. Əsrin əvvəllərində ictimai-siyasi mühitdə baş verənlər, çarizmin bolşevizmlə əvəzlənməsi, kollektivləşmə, otuzuncu illərin repressiyası, rus-alman müharibəsi, müharibədən sonrakı illər və s. hamısı özlüyündə ədəbi prosesin üzərindən keçirdi. Siyasi mühitdə yaşananların ağırlığı ədəbi mühitdə izsiz qalmırdı.

Əksinə, daha çox ağırlıq ədəbi mühitin üzərinə düşürdü. R.Rzanın, İ.Hüseynovun, İ.Şıxlının, B.Vahabzadənin, X.R.Ulutürkün, M.Arazın, İ.Məlikzadənin, Anarın, Elçinin, S.Azərinin, Y.Səmədoğlunun və bu silsilədən olan digərlərinin əsərlərində artıq mövcud yasaqların və baryerlərin pozulmasına cəhdlər vardı. Hətta, bir qədər açıq desək, müəyyən mətnaltı gedişlərlə, üstüörtülü sətiraltı eyham və işarələrlə etiraz motivləri görünürdü. Bunlar, onu da etiraf edək ki, birbaşa deyil, mətn daxilində epizodik şəkildə aparılırdı. Maraqlı olan da həmin düşüncə

fərqliliyinin, etirazın, cəmiyyətin çatışmazlıqlarını qabartmağa cəhdin xüsusi sənətkarlıq məharəti, yazıçı fəndi ilə ortaya qoyulmasıydı. Bu, özlüyündə bədii-üslubi manera məsələsidir və birbaşa yaradıcı axtarışlarından irəli gəlirdi. Keçən əsrin altımışıncı, səksəninci illər ədəbiyyatını, eləcə də imperiyanın dağılmasından sonrakı doxsanıncı illər ədəbi prosesini müxtəlif müstəvilərdə, yaradıcılıq potensiyasının imkanları və yeni ruhun mühitdə artan dinamik irəliləyişi maraqlı mənzərə ortaya qoyur.

Məlum olduğu kimi, "hər bir dövr ədəbiyyatına və ya müəyyən sənətkar yaradıcılığına müxtəlif nöqteyi-nəzərdən və mövqedən yanaşmaq mümkündür. Ədəbiyyatşünaslar daha çox bədii yaradıcılığın aparıcı pafosunu, qayəvi-estetik xüsusiyyətlərini, yenə də dəqiq söyləsək, müəllifin nə demək istədiyini və ya necə dediyini təhlil etməyə üstünlük verirlər"[1]. Təsadüfi deyil ki, keçən əsrin altımışıncı illərini ədəbiyyatda yeni bir mərhələnin başlanğıcı kimi vurğulayırlar. Bunun isə müəyyən reallıq, həqiqət tərəfləri var. Əlbəttə, bu dövrün təhlilini verən bir-birindən maraqlı, elmi-nəzəri səviyyəsi ilə diqqəti cəlb edəcək araşdırmalar çoxdur. Ancaq bizim marağımızda olan sənətkar axtarışlarında nağıl konstruksiyasından bəhrələnmənin özünəməxsusluq hadisəsidir.

Nağıl, dastan, rəvayət, əfsanə və s. bu mənada istifadə, bəhrələnmə üçün ən uğurlu baza idi. Ona görə də, keçən əsrin altmışıncı illər ədəbiyyatında olan nağıl ənənəsinin mahiyyətini geniş müstəvidə bir neçə istiqamətdə aydınlaşdırmaq zərurəti yaranır. Bunlar aşağıdakılardır:

a) nağıl etnosun, xalqın bədii düşüncəsini ifadə edən folklor qaynağı kimi;

b) nağılın bir forma kimi zəngin epik elementləri özündə ehtiva edə bilməsi imkanı;

c) ictimai-estetik təfəkkürü işarələyən hadisə kimi;

Bütün bunlar nağıla geniş mənada həm janr, həm real, irreal hadisələri əks etdirmək imkanında olan təcəssüm və təsvir vasitəsi, həm də düşüncə hadisəsi kimi baxmaq imkanı verir.

Nağıl bir forma kimi simvolları, mətnaltı düşüncəni ifadə etməyə daha çox imkana malik olduğu üçün yazılı ədəbiyyatda bu tükənməz folklor qaynağına tez-tez müraciət olunması təbiidir. Keçən əsrin 60-cı illərində ədəbi prosesi xarakterizə edən, ona özünəməxsusluq gətirən

---

1 Qasımbəyli Y. Milli oyanış və özünəqayıdış lirikası. Bakı: Elm və təhsil, 2012, s. 47.

başlıca keyfiyyətlərdən biri məhz xalq yaradıcılığından, o cümlədən də nağıl dünyasından ustalıqla bəhrələnmə idi. R.Rzanın, İ.Əfəndiyevin, Ə.Məmmədxanlının, Ə.Cəfərzadənin, İ.Hüseynovun, İ.Şıxlının, B.Vahabzadənin, X.R.Ulutürkün, N.Həsənzadənin, Y.Səmədoğlunun, Anarın, Elçinin, M.Arazın, M.Süleymanlının və başqalarının əsərlərində mühiti, cəmiyyətin problemlərini qaldırmaq istəyi bir milli-mənəvi haqq kimi çeşidli şəkillərdə ədəbi həyatı hərəkətə gətirmişdi. Əlbəttə, burada diqqət yetirilməli məsələlərdən biri hadisənin, mövcud sovet cəmiyyəti ilə bağlı problemlərin necə çatdırılması, daha doğrusu, dolayı təqdim manerası idi. Çünki problemi açıq şəkildə və bütün təfərrüatları ilə çatdırmaq sovet totalitar sistemi daxilində olduqca çətin, bəlkə də mümkünsüz idi. Ona görə də, sənətkar axtarışlarında müxtəlif formulların, mətn tiplərinin təkrarən və məqsədli şəkildə dövriyyəyə gətirilməsi aktuallaşırdı[1]. Ritual-mifoloji yaddaşın formulları, mifik-kosmoloji düşüncə, bədii yaradıcılıqda özünə yer tapırdı. Məsələn, S.Rəhimovun "Gülən balıq", "Ovqan və ilan", "Şir və tülkü", İ.Əfəndiyevin "Möhnət qocanın nağılları", "Sarıköynəklə Valehin nağılı", "Qarı dağı", İ.Şıxlının "Həkimin nağılı", "Məni itirməyin", Ə.Cəfərzadənin "Çörək", "Yumurta əhvalatı", M.Dilbazinin "Muğanda bahar", "Göyçək Fatmanın nağılı", "Danışılmamış nağıllar", Anarın "Yaxşı padşahın nağılı", "Ağ qoç, qara qoç", Elçinin "Bülbülün nağılı", "Qış nağılı", Ə.Ağayevin "Bülbül və leylək", Ə.Babayevanın "Ağca və Qaraca", "Külək və qırmızı papaq", "Nənələr, əfsanələr", M.Süleymanlının "Armud ağacının nağılı", "Duzsuzluq", "Dəyirman" və s. əsərləri mətn və özünüifadə baxımından kifayət qədər folklordan bəhrələnməyə köklənməklə səciyyələnir. Xalq yazıçısı Y.Səmədoğlunun altmışıncı illərdə məhz bu yazı manerası ilə qələmə aldığı "Xəzri", "Yaddan çıxmış sözlər" hekayələri mətnaltı məna yükü ilə bütünlükdə Azərbaycanın problemlərini, iki yüz ildə üzləşdiyi ağrıları ifadə etmək baxımından həmin dövr üçün, sözün həqiqi mənasında, bir sənətkarlıq örnəyi təsiri bağışlayır.

Keçən əsrin altımışıncı illərindən başlayaraq, ədəbi mühitdə folklora üz tutmanın məqsəd və mahiyyətində məhz bu səpkidə bədii diferensiallaşma, bütünlükdə ideyanı, yazıçı amalını özünəməxsusluq və müxtəlifliklərlə ifadə formulları görünür. Nağıl yaradıcı üçün bir vasitə, özünüifadə hadisəsi kimi böyük mahiyyət daşıyır. Ona görə də burada bütün nümunələrə mətn və mühit, subyektin özünüifadəsi, janrın vasitə funksionallığı kontekstində yanaşmaq lazım gəlir. Məhz bu üç parametr baxımından nağıl mövzusu, o cümlədən də bu mətnin obraz, süjet və motiv

[1] Yusifli.V. Nəsr, konfliktlər, xarakterlər. Bakı: Yazıçı 1986, s.134.

elementləri yaradıcı təxəyyülün diqqəti cəlb edə biləcək imkanlara malikdir. Xəlqi kolorit və folklor ruhu yaradıcı, oxucu üçün vacib və gərəkli olan informasiyanı, yaddaşı, milli-tarixi kimliyi, etnik mənsubluğu diqqət önünə çəkməsini aktuallaşdırır. İ.Əfəndiyevin, İ.Şıxlının, Anarın, Elçinin, Y.Səmədoğlunun, M.Süleymanlının yaradıcılığında mətn hadisəsi kimi bu keyfiyyətə meyl güclü idi. Sözün məna yaddaşı, janr məzmunu məhz bu müstəvidə bir tam olaraq qovuşur, biri digərini tamamlayan komponent təsiri bağışlayır. M.Süleymanlının "Şanapipik", "Duzsuzluq", "Yel Əhmədin bəyliyi", "Şeytan", "Dəyirman" sözün, mətnin həqiqi mənasından çox, mətnaltı maneraları ilə diqqəti cəlb edir və bu yöndə milli-tarixi yaddaşı oyadıb fəallaşdırır. "Şeytan"və"Duzsuszluq" nağıl-povestləri də "Dəyirman"povestində olduğu kimi bütünlükdə folklor motivi ilə simvollaşır. Nağıl məhz bu mənada mətn, fikrin ifadə hadisəsi kimi yazıçıya əlavə imkanlar açmaqla bədii çoxyönlü və çoxplanlı düşüncənin ifadəsinə münbit şərait yaradır. Göründüyü kimi, bütün müstəvilərdə nağıl bir formal ünsür olaraq geniş mahiyyət, xüsusi məna yaratma hadisəsi kimi mühüm əhəmiyyət daşıyır.

Siyasi rejim, sovet ideologiya maşını gerçəyin ifadəsinə sərt yasaqlar qoymuşdu. Bu səbəbdən də yazıçı hadisələri uzaq mifoloji zamana aparır. Yazıçı qayəsini, əsərdə nələrin deyilməsini isə mətnaltı manera ilə çatdırmaq yolunu tutur. İ.Əfəndiyevin "Qarı dağı", Anarın "Yaxşı padşahın nağılı", "Ağ qoç, qara qoç", Elçinin "Qış nağılı", "Şuşaya duman gəlib", M.Süleymanlının "Quru kəllə" və s. əsərləri nağıl formulları və mətnaltı manera imkanları ilə bütünlükdə yazıçı idealını, sosial sferanın mənzərəsini ortaya qoymaq və yaşatmaq məqsədinə xidmət edir.

İ.Hüseynov, İ.Şıxlı, Y.Səmədoğlu, İ.Əfəndiyev, B.Vahabzadə, M.Araz, X.R.Ulutürk, F.Qoca, M.Yaqub, N.Həsənzadə, Anar, Elçin, M.Süleymanlı sovet ideoloji maşınının altmış ilə qədər aşıladığı yeni mədəniyyət tipinin puçluğunu və xofunu təqdim etmək məqsədi ilə folklor texnologiyalarına, nağıl formullarındakı mətnaltı düşüncənin ifadəsinə üstünlük verirdilər. Tarixi-mental keyfiyyətlər, milli-mənəvi dəyərlər müxtəlif formalarda qabardılırdı və etnosun tarixi yaddaşının qorumasının vacibliyini təqdim edirdi. "Qətl günü", "Yaxşı padşahın nağılı", "Ağ qoç, qara qoç", "Dəyirman", "Quru kəllə", "Şeytan", kimi dəyərli bədii əsərlər folklor simvolikası və onun mətnaltı funksiyası ilə bütünlükdə ictimai, siyasi sferanı işarələyirdi. Bütün bu nümunələrdə yazıçı məqsədi və idealı alt qatdadır. Burada mühitin, mövcud ideologiyanın təqdim etdiyi yeni dəyərlər sistemi ilə tarixi və milli-mənəvi dəyərlərin paralelizmi, kontraslılığı folklor simvolikası ilə təqdim olunur. Nağıl formulları mətnaltı

manera kimi simvollarla, folklor texnologiyası ilə müasir mühiti və onun mahiyyətini, problemlərini açmaq missiyasında görünür. Bütün bunlar nağıl formullarına müraciətin məqsəd və tipində müxtəliflikləri, mətnaltı manera kimi hansı düşüncəni ifadə etməyin rəngarəngliyini aşkarlayır.

Azərbaycan ədəbiyyatının 60-80-ci illər mərhələsində nağıl mövzusuna müraciətin mahiyyət və spesifikasında ciddi keyfiyyət dəyişiklikləri baş verdi. Ədəbi mühit bundan bütünlükdə siyasi mühitin mahiyyətini, ideologiyanın məqsəd və niyyətini ortaya qoymaq üçün yararlandı. Nağıl mövzusunun mətnaltı manera imkanları ilə nağıl simvolikası imperiya təfəkkürünün ifadəsi üçün mühüm vasitəyə çevrildi. İ.Hüseynov, İ.Şıxlı, İ.Əfəndiyev, B.Vahabzadə, X.R.Ulutürk, Y.Səmədoğlu, Anar, Elçin, M.Süleymanlı və s. sənətkarlar müxtəlif formalarda nağıl strukturunu, bu mətn tipinin obraz, motin və süjet imkanlarını yeni düşüncə tipində bədii arenaya gətirməyin yolunu tutdular. Xalqın tarixi-mifoloji yaddaşının, elat təsəvvürlərinin, inanclarının, milli kimliyinin qorunuşunun vacibliyini təqdimə üstünlük verdilər. Soykökə qayıdış və milli tarixi kimliyin dərki üçün nağılın müstəsna funksiyaya malikliyini, manera və təsir imkanlarını dərk edib ondan yararlanmaq yolunu tutdular. Bütün bunlar XX əsr bədii düşüncəsində nağıla müraciətin mahiyyətini, məqsəd və məramını, nağılın bir forma kimi imkanlılığını, prinsipal səciyyə daşıdığını aydınlaşdırır.

Disserasiyanın **"Nəticə"** hissəsi onu deməyi əsas verir ki, XX əsr Azərbaycan ədəbiyyatı məndəricə və mahiyyət baxımından maraqlı zənginliklərlə səciyyələnir. Bədii düşüncənin diqqət mərkəzində dayanan milli-tarixi yaddaşın bərpası sırasından olan taleyüklü soykökə qayıdış, milli özünüdərk, istiqlal mücadiləsi dəyərlərin bədii sferaya gətirilməsi və s. məsələlər bütün əsr boyu məqsəd və məram olaraq əsas götürülmüşdür. Xalq yaddaşında zaman-zaman qəlibləşmiş formullar, epos təfəkkürü, nağıl simvolikası, dastan təhkiyəsi, əfsanə, rəvayət, miflərdən gələn obraz və motivlər iyirminci yüzillik boyu bədii düşüncəni müxtəlif şəkillərdə hərəkətləndirdi. Əsrin əvvəllərində Həsən bəy Zərdabinin, Soltan Məcid Qənizadənin, Məhəmməd ağa Şahtaxtlının, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Məmməd Əmin Rəsulzadənin, Firidun bəy Köçərlinin, Nəriman Nərimanovun, Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin, Məhəmməd Hadinin, Abbas Səhhətin, Hüseyn Cavidin, Abdulla Şaiqin, Haşım bəy Vəzirovun, Abdulla bəy Divanbəyoğlunun, Əhməd Cavadın, Süleyman Sani Axundovun, Rəşid bəy Əfəndiyevin, Məmməd Səid Ordubadinin və başqalarının yaradıcılığında xalq düşüncəsində qəlibləşmiş modellərə düşünülmüş və məqsədli müraciətin çoxalması prosesi getdi.

H.Zərdabinin “xalqın övladlarının başa düşəcəyi aydın əsərlər yazmaq” çağırışı bir növ mühitin baş şüarına çevrildi.

Sovetlər dönəmində nağıl mövzusuna müraciətin məqsəd və məramında, məzmununda, mündəricəsində müxtəlif görüntülər və keyfiyyət dəyişmələri nəzərə çarpır. Bunun isə köklü səbəbləri vardır. Heç şübhəsiz, XIX əsrin sonu və XX əsrin əvvəllərindəki maarifləndirmə, xalqın mədəni səviyyəsinin yüksəldilməsi düşüncəsi ədəbi-mədəni düşüncə sahiblərinin fəaliyyətində sonrakı onilliklərdə də davam edirdi. Geriliyin aradan qaldırılması, xalqın aşağı təbəqəsinin dünyagörüşünün irəliləməsi üçün ədəbi mühit milli-mənəvi mədəniyyətin dəyərlər sisteminə, xalq düşüncəsindən gələn maarifçi-humanist keyfiyyətlərə daha çox üstünlük verirdi. Nağıl dünyasının mənəvi zənginliyi bu məram və məqsədin həyata keçirilməsi üçün ən yaxşı yol və vasitələrdən biri idi.

XX əsr Azərbaycan ədəbiyyatında nağıl mətninin yazılı ədəbiyyata məxsus hekayə, roman, poema, pyes və başqa janrlarla sintez halına gələrək nağıl-hekayə, nağıl-povest, nağıl-pyes, nağıl-poema kimi maraqlı bədii örnəklərin yaranmasına yol açdı. Bu sintez nəticəsində yaranan bədii nümunələr istər poeziya, istər nəsr, istərsə də dramaturgiya sahəsində böyük canlanma yaratdı. Çünki onlar məhz bu janr sintezi arxasında cəmiyyətin siyasi, ictimai, mədəni problemlərini ifadəyə yönəlirdi. Maarifçi-realistlərin düşüncəsinə görə, sosial sferada baş verən prosesləri, çatışmamazlıqları, münasibətləri həll etməyin yeganə yolu maarifləndirmə ilə bağlı idi.

İyirminci yüzillik yazılı ədəbiyyatında nağıl mövzusuna müraciətin əsas istiqamətlərindən biri siyasi mühiti, sovet totalitar sistemini, rejimin müstəmləkəçilik siyasətini, xalqlara qarşı məkrli yanaşmalarını, millətlər və xalqlar arasındakı münasibətlərdə süni gərginliklər yaradılmasını, milli münaqişə ocaqlarının təşkilini və s. məsələlərə bu və ya digər dərəcədə mövqe nümayiş etdirmək, xalqı baş verə biləcək təhlükələrə qarşı hazır olmağı səsləmək idi. Çünki həm çarizm, həm də sovetlər ittifaqı bütün mahiyyəti ilə imperiya məfkurəsinə köklənmişdi və xalqlara da yanaşmada bu təsəvvürü əsas götürürdü.

Azərbaycan ədəbiyyatının 60-80-ci illər mərhələsində nağıl mövzusuna müraciətin mahiyyət və spesifikasında ciddi keyfiyyət dəyişiklikləri baş verdi. Ədəbi mühit bundan bütünlükdə siyasi mühitin mahiyyətini, ideologiyanın məqsəd və niyyətini ortaya qoymaq üçün yararlandı. Nağıl mövzusunun mətnaltı manera imkanları ilə nağıl simvolikası imperiya təfəkkürünün ifadəsi üçün mühüm vasitəyə çevrildi. İ.Hüseynov, İ.Şıxlı, İ.Əfəndiyev, B.Vahabzadə, X.R.Ulutürk, Y.Səmədoğlu, Anar, Elçin,

M.Süleymanlı və s. sənətkarlar müxtəlif formalarda nağıl strukturunu, bu mətn tipinin obraz, motin və süjet imkanlarını yeni düşüncə tipində bədii arenaya gətirdilər.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**


1. Anarın "Ağ Qoç, Qara Qoç" əsərində folklordan istifadə manerası // Dil və ədəbiyyat, BDU, Beynəlxalq elmi-nəzəri jurnal,2011,№ 3(87), s.142-144.

2. S.S.Axundovun hekayələrində nağıl motivləri. Azərbaycanşünaslığın aktual problemləri / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-cı ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları, 05-07 may 2014-cü il, Bakı: 2014, s.100-112.

3. XX əsr Azərbaycan ədəbiyyatında nağıl-poemalar // AMEA-nın "Xəbərləri", Humanitar Elmlər seriyası 2014, № 2, s.155-159.

4. Anarın "Yaxşı padşahın nağılı"əsərinin janr səciyyəsi // AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat məcmuəsi", Xüsusi buraxılış, XXVI cild. Bakı: Elm və təhsil, 2015, s. 289-293.

5. Yusif Vəzir Çəmənzəminli və Azərbaycan nağılları // Sivilizasiya, Bakı Avrasiya Universiteti, Elmi-nəzəri jurnal, 2016, № 2, s. 72-76.

6. In the 20 th century Azerbaıjanı literature the use of for faırytale as a tool for sublımınal messages // Лıтература в контекстı культури. Збірник наукових праць, Випуск 27, КИİВ, 2016, с. 24-31.

7. XX əsr Azərbaycan ədəbiyyatında nağıl janrının yeri // Dil və ədəbiyyat. BDU, Beynəlxalq elmi-nəzəri jurnal, Bakı: 2016, № 1 (98), s. 455-457.

8. Anarın yaradıcılığında nağıl mövzusundan istifadənin formaları // AMEA-nın "Xəbərləri", Humanitar Elmlər seriyası, 2017, № 1, s. 93-96.

9. Əzizə Çəfərzadənin hekayələrində nağıl, əfsanə və rəvayət mövzusuna müraciətin forma və üsullar // Filologiya məsələləri, 2017, № 6, s. 388-393.

**Саадат Маммед кызы Байрамова**

## ХУДОЖЕСТВЕННОЕ ОТОБРАЖЕНИЕ ТЕМЫ СКАЗКИ В ПИСЬМЕННОЙ АЗЕРБАЙДЖАНАСКОЙ ЛИТЕРАТУРЕ XX ВЕКА

## РЕЗЮМЕ

Представленная диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во «Введении» обоснованы актуальность темы, степень изученности, цели и задачи, теоретико-методологические основы, научная новизна, теоретическое и практическое значение диссертации, даются сведения о её апробации и структуре.

I глава «Художественно-историческая необходимость обращения к теме сказок в разные периоды XX века» состоит из 2 разделов. В первом разделе «Место темы сказки в художественной литературе первой половины XX века» внимание уделено сути проблемы. Здесь выявляются причины обращения к сказкочным сюжетам, её формулам при определении генетики, функционального содержания в свете проблем общества и художественной среды.

Во втором разделе I главы - «Качественно новый подход к теме сказки» изучается разнообразие подходов в представлении событий, смысла и значения обращения к сказочным сюжетам в советское время.

Во второй главе – «Форма и стиль обращений к сказочным темам» - также имеется два подраздела. Объектом исследования первой подраздела являются проблема «Творческие поиски в традиционно-просветительском представлении темы сказки». Обращение представителей азербайджанской литературы XX века к сказочным сюжетам, представляет интерес с точки зрения разнообразия тем, сюжетов, форм и стилей отмеченных произведений. На протяжении XX века исследование тематических различий, разнообразия мотивов, сюжетов, сюжетов, стилей проводилось хронологически по отдельным десятилетиям. Благодаря этому нам представилось возможность тщательного изучения в творчестве азербайджанских писателей XX века таких формул сказок, как сказка-рассказ, сказка-повесть, сказка-роман, сказка-поэма, сказка-басня, сказка-драма.

Во втором разделе ЖЖ главы - «Обращение к теме сказки как иносказательному приему» определяются, анализируется явление подтекстового мышления. Азербайджанские писатели И.Гусейнов, И.Шихлы, И.Меликзаде, Анара, Эльчин, С.Азери, Ю.Самедоглу, М.Сулейманлы и писатели пробовали выйти за установленные рамки. В их произведениях уже были предприняты попытки при помощи определённого подтекста использовать мотивы протеста. В них прямо или косвенно было выражено национальное мышление.

В «Заключении» диссертации обобщены полученные в результате исследования выводы.

**Saadat Mammad gizi Bayramova**

# Artistic Expression of the Tale Topic in XX Century Azerbaijani Written Literature

## SUMMARY

Dissertation consists of introduction, two chapters, result and the list of utilized literature.

There are based urgency, degree of studying, object and duty, theoretical-methodological basis, scientific novelty, theoretical and practical importance of topic and it is informed about the structure and approbation in the "Introduction" of the dissertation.

First chapter that is named "**Literary historical importance of appealing to the topic of tale in the different stages of XX century**" is generalized in two sub-chapters. It is paid attention to the essence of the problem in the first sub-chapter which is called "**Place of the tale subject in the artistic literature in the first half of XX century"**. It is clarified functional importance, genetics of benefiting from the tales, formulas of tales from the perspective of the problems of literary environment and society.

It is investigated differences among the appeals to the subject of tale in Soviet eve and importance of presentation and estimating of events in the second sub-chapter named **"Renewal of the appeal to the tale subject from the quality point of view**".

The problem is generalized in two sub-chapters in the second chapter "**Forms and ways of appealing to the tale subject".** It is became object of the investigation "**Artistic searches in the traditional-educationalist presentation of the tale subject**". Forms and ways of appealing to the tale subject of XX century Azerbaijani literature that rouse interest from topical and contents point of view lead some serious problems. Analysis that have been conducted for century make it inevitable to study the problems of subject, motif, plot, style, even the differences in separate decades. So, it becomes necessary to observe formula of tale in the activity of artists from the perspective of tale-story, tale-narrative, tale-novel, tale-poem, tale-fable, tale -drama.

Second chapter that is called "**Appeal to the subject of the tales as a implicated manera**" is the event of defining the things given in hinted thought. There are efforts to destroy existing borders in the works of I. Huseynov, I. Shikhli, I. Malikzadeh, Anar, Elchin, S. Azar, Y. Samadoghlu, M. Suleymanli and other such masters. If to tell the truth there are witnessed motifs of objections in some sub-texts. The most interesting thing that is observed is to express national thought directly or indirectly.

Results gained from the dissertation are generalized in the "**Summary".** It can be concluded that XX century Azerbaijani artistic prose is characterized with interesting richness from the essential and contents point of view.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ ГЯНДЖЕВИ**

*На провах рукописи*

**СААДАТ МАМЕД кызы БАЙРАМОВА**

# ХУДОЖЕСТВЕННОЕ ОТОБРАЖЕНИЕ ТЕМЫ СКАЗКИ В ПИСЬМЕННОЙ АЗЕРБАЙДЖАНАСКОЙ ЛИТЕРАТУРЕ XX ВЕКА

**5716. 01** – Азербайджанская литература

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ – 2017**